Azərbaycan Respublikası
AUDITORLAR PALATASI

AZƏRİ AUDİT SERVİS
Məhdud Məsuliyyətli Cəmiyyəti

CHAMBER OF AUDITORS
of Azerbaijan Republic

AZƏRİ AUDİT SERVİS
Limited Liability Company

Ünvan: Bakı şəh, Yasamal ray, İzmir küç., ev 9c Tel: +994 (50) 325 62 98 E-mail: yasinshirinov@mail.ru

**Müstəqil auditorun hesabatı (rəyi)** **№ F9GheiGm5C**

**"Refinance Kredit İttifaqı" MMC-nın (VÖEN 1302474361) rəhbərliyinə**

**Müsbət rəy**

Biz, "Refinance Kredit İttifaqı" MMC-nın 31 dekabr 2025-ci il tarixə balans hesabatından və bu tarixdə başa çatmış il üzrə mənfəət və zərərlər, kapitalda dəyişikliklər və pul vəsaitlərinin axını barədə hesabatlarından, habelə əhəmiyyətli uçot siyasətinin və digər izahedici qeydlərin qısa xülasəsindən ibarət olan əlavə edilmiş maliyyə hesabatlarının auditini apardıq.

Hesab edirik ki, maliyyə hesabatları 31 dekabr 2025-ci il tarixinə Cəmiyyətin maliyyə vəziyyəti və bu tarixdə başa çatmış il üzrə maliyyə nəticələri və pul vəsaitlərinin axını üzrə Beynəlxalq Maliyyə Hesabatları Standartlarına (BMHS) müvafiq olaraq düzgün və ədalətli təsəvvür yaradır.

**Rəy üçün əsaslar**

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə mənim məsuliyyətim əlavə olaraq hesabatın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Etika məcəlləsinin" (IESBA məcəlləsi) tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu və IESBA məcəlləsinin tələblərinə uyğun yerinə yetirmişik. Hesab edirik ki, əldə etdiyimiz audit sübutları auditor rəyini əsaslandırmaq üçün yetərli və münasibdir.

**Əsas audit məsələləri**

Əsas audit məsələləri bizim peşəkar mühakiməmizə görə cari dövrün maliyyə hesabatlarının auditində ən əhəmiyyətli məsələlərdir. Bu məsələlər maliyyə hesabatlarının auditi baxımından və maliyyə hesabatlarına dair rəyimizin formalaşdırılmasında bütövlükdə nəzərə alınmışdır və biz bu məsələlərə dair ayrılıqda rəy vermirik.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Cəmiyyətin maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz təqdim edilmiş maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını təqdim etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkarlasın. Təhriflər

AZƏRBAYCAN RESPUBLİKASI Məhdud Məsuliyyətli Cəmiyyəti AZƏRİ AUDİT SERVİS Limited Liability AZERBAIJAN

dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə təqdim edilmiş maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

BAS-ların tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi biz audit aparılan zaman peşəkar mühakimə tətbiq edirik və peşəkar inamsızlıq nümayiş etdiririk. Biz həmçinin:

- Maliyyə hesabatlarında dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflər risklərini müəyyən edib qiymətləndiririk, bu risklərə cavab verən audit prosedurlarını layihələndirib həyata keçiririk və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirik. Dələduzluq nəticəsində əhəmiyyətli təhrifi aşkarlamamaq riski səhvlər nəticəsindəkindən daha yüksəkdir, çünki dələduzluq sözləşmə, saxtakarlıq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər.
- Cəmiyyətin daxili nəzarətin səmərəliliyinə dair rəy bildirmək məqsədi üçün olmamaq şərtilə, bu şəraitlərdə uyğun olan audit prosedurlarını layihələndirmək üçün auditə aid daxili nəzarəti başa düşürük.
- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məntiqliliyini qiymətləndiririk.
- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə edilməsinin uyğunluğuna və əldə edilən audit sübutlarının əsasında Cəmiyyətin fəaliyyətini fasiləsiz davam etmək imkanını ciddi şübhə altına qoya bilən hadisələrlə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığında dair nəticə çıxarırıq. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığımız halda, auditor hesabatımda maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməliyik və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimizə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Lakin sonrakı hadisələr və ya şəraitlər Cəmiyyətin fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər.
- Məlumatların açıqlanması da daxil olmaqla, maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin maliyyə hesabatlarında ədalətli təqdim edilib-edilmədiyini qiymətləndiririk.

Biz subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddətləri, habelə əhəmiyyətli audit sübutları, o cümlədən audit apardığımız zaman daxili nəzarətdə aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında məlumat veririk.

Biz həmçinin subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə bəyanat veririk ki, müstəqilliyə və müstəqilliyimə təsir etməsi əsaslandırılmış şəkildə güman edilən bütün əlaqələr və digər məsələlərə, habelə müvafiq olduğunda əlaqəli qorunma tədbirləri haqqında məlumat verməyimizə dair müvafiq etik normalarına riayət etmişik.

Cəmiyyətin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin nəzərinə çatdırılmış məsələlərdən biz cari dövr üzrə maliyyə hesabatlarının ən əhəmiyyətli və bu səbəbdən əsas audit məsələləri olanları müəyyən edirik. Bu məsələnin ictimaiyyətə açıqlanmasına qanun və ya qaydalarla yol verilmədiyi halda və ya, çox nadir hallarda, məsələ haqqında hesabatda məlumat vermənin mənfi təsirlərinin onun ictimaiyyət üçün faydalarından çox olacağı əsaslandırılmş şəkildə güman edildiyinə görə biz bu məsələ haqqında hesabatımızda məlumatın verilməməsini qərara almadığımız halda, biz bu məsələləri auditor hesabatında təsvir edirik.

**"Azəri Audit Servis" MMC-nin**

**Direktor- Auditoru:** **Elvin Rzayev**

**Auditor:** **Zamaləddin Qasımov**

*"İcazə"*
*13.01.2025-ci il, № AT/209*
*08.09.2023-cü il, № SA/229*

**Bakı, Azərbaycan**
**22 aprel 2026-cı il** **№ F9GheiGm5C**

**"Refinance Kredit İttifaqı" MMC**

**Başa çatan 31.12.2025-ci il tarixinə**

**Mühasibat Balansı**

*Ölçü vahidi: AZN ilə*

| Göstəricilər | 31.12.2025 | 31.12.2024 |
|---|---|---|
| **Aktivlər** | **AZN** | **AZN** |
| Nağd pullar | 9262 | 9952 |
| Bank hesablarında olan pullar | 1176 | 1882 |
| Kreditlərin cəmi | 844642 | 796420 |
| (Xüsusi ehtiyat fondu) | (42372) | (32056) |
| Xalis kreditlər | **802270** | **764364** |
| Əsas vəsaitlər | 21229 | 25033 |
| Hesablanmış faizlər | 22581 | 16684 |
| Digər aktivlər | 51812 | 58737 |
| **Cəmi Aktivlər** | **908329** | **876651** |
| **Passivlər və Kapital** | | |
| Alınmış kreditlər | 117108 | 143676 |
| Ödəniləcək faizlər | 38 | 0 |
| Digər öhdəliklər | 5757 | 9266 |
| **Cəmi öhdəliklər** | **122902** | **152942** |
| Nizamnamə kapitalı | 722540 | 671807 |
| Bölüşdürülməmiş mənfəət (zərər)* | **62886** | **51902** |
| Keçmiş illərin xalis mənfəəti (zərər) | 51902 | 51902 |
| Cari ilin xalis mənfəəti /zərəri | 10984 | 0 |
| **Kapitalın cəmi:** | **785427** | **723709** |
| **Passivlərin cəmi:** | **908329** | **876651** |

**Rəhbərlik adından**

**Fərəcov Yaşar Tərlan oğlu** | **Rustamov Anar Əlhəm oğlu**

**İH sədri** | **Baş mühasib**

**Təsdiq edirəm**
**"Azəri Audit Servis" MMC-nin auditoru**

**Z.Qasımov**
**22 aprel 2026-cı il**

## "Refinance Kredit İttifaqı" MMC üzrə başa çatan 31.12.2025-ci il tarixinə Mənfəət və Zərərlər haqqında Hesabat

*Ölçü vahidi: AZN ilə*

| Sıra sayı | Gəlir və xərclərin maddələri | 31.12.2025 | 31.12.2024 |
|---|---|---|---|
| 1 | **Faiz gəlirləri cəmi:** | **167619** | **141908** |
| | o cümlədən: verilmiş kreditlər üzrə | 167619 | 141908 |
| 2 | **Faiz xərcləri cəmi:** | **1122** | **1405** |
| | o cümlədən: kreditlər üzrə | 1122 | 1405 |
| 3 | **Xalis faiz gəliri (zərər)** | **166497** | **140504** |
| 4 | **Digər qeyri-faiz gəlirləri cəmi:** | **22741** | **37183** |
| | o cümlədən: | | |
| | a) qeyri-adi gəlirlər | | |
| | b) digər gəlirlər | 22741 | 37183 |
| 5 | **Inzibati xərclər cəmi:** | **158590** | **143399** |
| | o cümlədən: | | |
| | a) əmək haqqı və ona bərabər tutulan xərclər | **111609** | **105830** |
| | a1) əmək haqqı | 85740 | 87427 |
| | a2) mükafatlar | 8388 | 1735 |
| | a3) sosial tə"minat xərcləri (məşğulluq fonduna ayırmalar daxil olmaqla) | 17480 | 16667 |
| | b) daşmmaz əmlakla əlaqədar xərclər | 4704 | 8393 |
| | c) icarə xərcləri | 17455 | 16342 |
| | d)digər xərclər | 24823 | 12834 |
| 6 | Əməliyyatlardan daxil olan mənfəət (zərər) | **30648** | **34288** |
| 7 | "Xüsusi ehtiyat fondu"nun yaradılmasına ayırmalar (xərclər) | -19663 | -20662 |
| 8 | **Vergilər çıxılanadək mənfəət (zərər)** | **10984** | **13626** |

Rəhbərlik adından

Fərəcov Yaşar Tərlan oğlu

İH sədri

Rustamov Anar Əlhəm oğlu

Baş mühasib

Təsdiq edirəm
"Azəri Audit Servis" MMC-nin auditoru

Z. Qasımov
22 aprel 2026-cı il